# TOFİQ ABDİNİN "NƏDƏN"LƏRİ...



On ildən çox müddətdə üzbəüz redaksiyalarda çalışmışıq. Hər səhər ertədən AYB-yə işə gəlib qəzetlər, saytlar üçün redaksiyanın kompüterində "köşə" yazıları inşa edir, bomboş dəhlizdə hənirtimi eşidən kimi "Qobustan"dan çıxıb salamlaşır və Yəhya Kamal Bayatlının məşhur "Səssiz gəmi"sini əzbərdən, sanki öz-özünə deyirmiş kimi osmanlı ləhcəsində səsləndirirdi.

Bu səhər də belə oldu. "Ulduz"un qapısını elə yenicə açmışdım ki, arxadan ölməz şeirin ilk misralarını Tofiqin səsilə eşitdim:

**Artık demir almak günü gelmişse zamandan**
**Meçhule giden bir gemi kalkar bu limandan...**

Geri çevrilib baxanda rəhmətliyi gördüm. Yenə dama-dama pencəkdə, cins şalvardaydı, qalstuku da öz yerində. Sanki köhnə qara-ağ filmin hələ də unutmadığım kadrları yenidən gözlərim önündə canlandı. 15-20 il qabaq, elə bu dəhlizdəcə tanış olduğumuz vaxt verdiyi qəliz, əndərabadi sualı bir də təkrarladı:

- Efendim, bilgisayarım nasaz, dosyelerim onaylanmıyor. Bilgisayarımın kapatılmasına neden ola bilecek nedeni neden bile bileriz, yahu?

Amma bu dəfə təəccüblənməyə, heyrətlənməyə heç macal da tapmadım, çünki... yuxudan oyanmışdım...

Eh, Tofiq abi, əziz dostumuz! Bir də yuxuma girsən, "bilgisayarının kapatılmasına "nədən" olan "nədən"in "nədən"ini"n sirrini loru dildə sənə anladaram...

***Oqtay Əhmədov***